Azərbaycan.- 2021.- 1 may. S. 1; 6.

◆ Jurnalist araşdırması

# Qarabağ mövzusu telekanallarda niyə bəsit işıqlandırılır

## Məişət dedi-qoduları, primitiv şoular teleməkanda hələ də Vətən və Zəfər mövzusunu üstələyir

**Təbii ki, özəl kanalların biznes maraqları da var, amma bu maraqlar xalqın, dövlətin ictimai mənafeyini üstələyə bilməz və üstələməməlidir.**



Yüz illər sonra Azərbaycanın bugünkü telekanallarının fəaliyyətinə nəzər salanlarda elə bir təsəvvür yaranacaq ki, XXI əsrin əvvəllərində azərbaycanlı tamaşaçılar ölkənin həyatında baş verən bu qədər taleyüklü məsələlərin fövqündə televiziyalardan yalnız şou tələb ediblər...

Məgər xalqımızın mavi ekrana çıxarılacaq üzləri sadəcə gəlinini yola verməyən qayınanadır?

Yoxsa valideyninin üzünə ağ olan övladlar...

Və bütün cəmiyyətlərdə var olan 3-5 belə mənəviyyat kasadlarını xüsusi səylə axtarıb taparaq ictimaiyyətə təqdim etməyin məramı nədir?

Azdırmı əri şəhid olan, azyaşlı övladlarını min bir əziyyətlə böyüdən, onlara təhsil verən, əllərini çörəyə çatdıran qəhrəman analarımız? Bəlkə hər iki valideynini Xocalıda itirən və uşaq yaşlarından bacı-qardaşlarının bütün yükünü çiyninə götürərək onları böyüdüb boya-başa çatdıran övladlarımız yoxdur?!

Bu illər ərzində istisnasız olaraq heç bir televiziya kanalında Qarabağa həsr olunan, oradakı milli-mənəvi dəyərlərimizi təbliğ edən silsilə proqramlara rast gəlmədik.

Hansısa müəmmalı yanaşmaya əsasən indiyə qədər bu serialların birinin də ssenarisi Qarabağa həsr olunmayıb...

Həmin serialların birində də hansısa məcburi köçkün baş qəhrəman kimi canlandırılmayıb...

*Bax: səh. 6*

Jurnalist araşdırması

# Qarabağ mövzusu telekanallarda niyə bəsit işıqlandırılır

## Məişət dedi-qoduları, primitiv şoular teleməkanda hələ də Vətən və Zəfər mövzusunu üstələyir

*27 sentyabr 2020-ci il...*

*Ali Baş Komandan İlham Əliyev televiziya vasitəsilə Ermənistanın işğal etdiyi torpaqlarımızda təxribat törətməsi və Vətən savaşının başlaması ilə əlaqədar xalqa müraciət etdi...*

*Və dövlət başçısının bu müraciəti Yer üzündə yaşayan bütün azərbaycanlıları "7-dən 77-yə" yerli televiziyalarımızın ekranlarına kilidlədi...*

*Elə həmin tarixdən etibarən illərdir yerli TV-lərdə istəyinə uyğun veriliş tapmayaraq xarici teleməkanlara üz tutan azərbaycanlı tamaşaçı gecə-gündüz öz televiziyalarımızın qarşısından əl çəkmədi.*




44 günlük müharibə dövründə Ali Baş Komandanın xalqa müraciətlərini, azad edilən yurdlarımızın adlarını bir-bir çəkməsini, hər ötən gün qələbə müjdələri verməsini böyük coşqu ilə izlədi.

Həmin kadrlara bir dəfə baxmaqla doymadı, dəfələrlə, təkrar-təkrar seyr etdi...

Bəli, heç bir pafosa, ifrata varmadan demək olar ki, sentyabrın 27-dən 10 noyabra qədərki 44 gün ərzində Azərbaycan tamaşaçısı nə ənənəvi telekanallardakı hansısa verilişi izləməyə, nə də seriala baxmağa maraq, həvəs göstərdi...

### Mənəviyyata qarşı teleqəsd

Amma elə ki Vətən müharibəsi bitdi və üzərindən qısa müddət keçdi, azərbaycanlı televiziya izləyiciləri yenidən xarici telekanallara yönəldi...

Bəs izləyicilərin birdənbirə yerli telekanallardan ənənəvi televiziyalara doğru sürətlə dəyişən marağının səbəbi nədir, görəsən?

Buna cavab tapmaq üçün isə sadəcə yerli telekanallarımızın tamaşaçıya təqdim etdiyi, əslində sırımaq istədiyi verilişlərə, çəkdiyi teleseriallara göz gəzdirmək kifayətdir.

İllərdir Azərbaycanlı televiziya seyrçisinin səviyyəsini bazar meyarları ilə ölçən telebazar möhtəkirləri tamaşaçıların yalnız əyləncə, şou ilə maraqlandığını irəli sürüb, bu bəhanələrin arxasına sığınaraq daha asan başa gələn və reklama hesablanan verilişlər, seriallar çəkməyin arxasınca qaçıblar. Milli mənəviyyatımıza tamamilə yad verilişlər yayımlayıb, məişət səviyyəsindəki "gəlin-qayınana" münaqişəsini ölkənin əsas müzakirə mövzusu kimi təqdim etməyə çalışıblar. Elə hazırda da vəziyyət fərqli deyil. Qazanc hərisliyindən doğan və sadəcə reklama hesablanan bu cür yanaşmalar isə, təbii ki, azərbaycanlı tamaşaçını, sözün əsl mənasında, iyrəndirərək ənənəvi efirlərə yönləndirib.

Yeri gəlmişkən deyək ki, artıq bu məsələ ilə bağlı özəl telekanalların hər zaman gətirdiyi köhnə bəhanələri - "tamaşaçı yüngül şou proqramlara daha çox maraq göstərir", "izləyici bu cür verilişlərə baxmaq istəyir" kimi tezisləri çürüdüb.

Yuxarıda nümunəsini verdiyimiz kimi, Azərbaycan tamaşaçısını ölkənin, xalqın, dövlətin taleyindən daha çox maraqlandıracaq ikinci bir məsələ yoxdur.

Sadəcə televiziyalarımız bir az istedad nümayiş etdirərək, həvəs göstərərək həmin məsələləri tamaşaçılar üçün baxımlı etməyə səy göstərməlidir.

### Niyə yalnız şou olmalıdır?

Televiziya milyonlarca izləyici auditoriyası olan ən güclü təbliğat vasitəsidir. TV-nin əlində olan bu geniş imkandan ictimaiyyəti məlumatlandırmaq, maarifləndirmək, əyləndirmək üçün istifadə edilməlidir. Lakin bizim əksər televiziyalar ilk iki təbin üzərindən qara bir xətt çəkərək, sadəcə üçüncü, əyləndirmək missiyasını yerinə yetirməyə çalışır.

Və əyləndirmək sözünün ehtiva etdiyi mənanı da tamamilə özlərinə sərf edəcək şəkildə tətbiq edir, gecə-gündüz yüngül şou proqramlar hazırlayıb efirə verirlər ki, bu, ictimai sifarişdir...

Bu gün özəl teleşirkətlərin efirləri səviyyəsiz şoular, ucuz əyləncə verilişləri, şit maqazin proqramları ilə doldurulub. Birdən-birə haradansa peyda olan yeni simalar - mahnısından çox qalmaqalları ilə məşhur olan müğənnilər, xalqa "sənətkar" kimi təqdim olunanlar ya verilişlərin qonaqlarıdırlar, ya da ki, özləri proqram aparıcısıdırlar. Şübhəsiz, sənətdən bixəbər və istedaddan uzaq olan bu tipli şəxslərin efirlərə qonaq, yaxud da aparıcı kimi çıxmaları onların həmin kanallara ödədikləri pul vəsaitləri, yaxud da cəlb etdikləri reklamlar vasitəsilə mümkün olur.

Təbii ki, özəl kanalların biznes maraqları da var, amma bu maraqlar xalqın, dövlətin ictimai mənafeyini üstələyə bilməz və üstələməməlidir.

Yüz illər sonra Azərbaycanın bugünkü telekanallarının fəaliyyətinə nəzər salanlarda elə bir təsəvvür yaranacaq ki, XXI əsrin əvvəllərində azərbaycanlı tamaşaçılar ölkənin həyatında baş verən bu qədər taleyüklü məsələlərin fövqündə televiziyalardan yalnız şou tələb ediblər.

Reallıq isə tamam başqadır.

Televiziya efirlərimiz o qədər bəsit materiallar, ucuz şou məhsullar, musiqi proqramları ilə doldurulub ki, tamaşaçı kütləsi ondan üz çevirərək türk, rus, Avropa kanallarına yönəldi.

Və öz telekanallarımızda tamarzı olduqları intellektual verilişləri, maraqlı məlumatları, maarifləndirici proqramları xarici kanallardan hava-su kimi qəbul etməyə başladılar...

### Teleulduzlar ancaq mənəviyyat naqisləri içindən seçilir

Televiziyanın həm də milli adət-ənənələrin qorunub saxlanmasında, cəmiyyətin mənəvi dəyərlər sisteminin formalaşmasında əvəzsiz rolu var. Amma Azərbaycanın özəl teleməkanında hazırlanan verilişlərin əksəriyyətinin bu dəyərlərdən çox-çox uzaq olduğunu görürük. Bu verilişlərin əsas qayəsi süni sensasiya yaratmağa, adamları qarşıdurmaya çəkərək qalmaqallar törətməyə, təsadüfi hadisələri şişirdərək millətin və xalqın ümumi bəlası kimi təqdim etməyə yönəlib.

Əksər özəl televiziya kanallarımız üçün ən populyar veriliş mövzularından biri də insanların illər əvvəl itkin düşən doğmaları ilə qovuşdurulmasıdır. Bu mövzularda "Xəzər"in "Səni axtarıram" (aparıcı Xoşqədəm Hidayətqızı) və ATV-nin "Bizimləsən" (aparıcı Zaur Baxşəliyev) proqramları ilk baxışdan çox təqdirəlayiq, doğmaların bir-birinə həsrətinə son qoyan humanist bir missiyanı həyata keçirmək təəssüratı yaradan bu verilişlərin iç üzü isə tamamilə fərqlidir. Və sanki tamaşaçının əsəbini sınağa çəkmək üçün xüsusi tərtib olunub.

Diqqət edirsən ki, harada ən mənəviyyatsız biri varsa, onu tapıb gətirirlər studiyaya. Belə şəxslər ya övladını atan anadır, ya həyat yoldaşına xəyanət edən ər, ya qonşusunun övladına qənim kəsilən cani və sair və ilaxır.

Efirdə onu ifşa edirlər, doğmaları bir-birinə qarşı qoyurlar, dalaşdırırlar, hay-küy, qışqırıq aləmi başına götürür.

Və bütün bu psixoloji biabırçılığa tamaşaçının əsəbləri dözmür, başını götürüb Azərbaycan teleməkanından sürətlə uzaqlaşır...

Bu cür verilişlərdə tamaşaçıya aşılanmaq istənilən dəyər, güdülən məqsədin nə olduğu isə tam bir müəmmadır.

Məgər, xalqımızın mavi ekrana çıxarılacaq üzləri sadəcə gəlinini yola verməyən qayınanadır?

Yoxsa valideyninin üzünə ağ olan övladlar.

Və bütün cəmiyyətlərdə var olan 3-5 belə mənəviyyat kasadlarını xüsusi səylə axtarıb taparaq ictimaiyyətə təqdim etməyin məramı nədir?

### Düşmən dəyirmanına tökülən su

Düz 30 il idi ki, Azərbaycan erməni millətçilərinin torpaqlarımıza qarşı təcavüzü ilə üz-üzə qalmışdı, Qarabağ tapdaqdaydı, yüz minlərlə vətəndaş qaçqın, köçkün vəziyyətində min bir zillətə düçar olmuşdu. Həmin insanların hər birinin taleyi, necə çətin şəraitlərdə yaşayaraq həyat mücadiləsi verməsi haqqında günlərlə davam edəcək silsilə verilişlər hazırlamaq olardı.

Azdırmı əri şəhid olan, azyaşlı övladlarını min bir əziyyətlə böyüdən, onlara təhsil verən, əllərini çörəyə çatdıran qəhrəman analarımız?

Bəlkə hər iki valideynini Xocalıda itirən və uşaq yaşlarından bacı-qardaşlarının bütün yükünü çiyninə götürərək onları böyüdüb boya-başa çatdıran övladlarımız yoxdur?!

Bəs nə üçün onlar deyildi (elə indi də) mavi ekranlarımızın qəhrəmanları?

Axı televiziya həm də bir xalqın mənəvi güzgüsü, kənardan izləyənlər üçün onun haqqında fikir formalaşdıran ümumi meyardır.

Bu illər ərzində istisnasız olaraq heç bir televiziya kanalında Qarabağa həsr olunan, oradakı milli-mənəvi dəyərlərimizi təbliğ edən silsilə proqramlara rast gəlmədik. Əksinə, mənəviyyatımıza tamamilə yad proqramlar hazırlanaraq efirlərdə kriminal ünsürlər, cinayətkarlar, bəd əməllərlə məşğul olanlar, istedadsızlar qəhrəmanlaşdırıldı, bir növ onların həyat tərzi cəmiyyətə təlqin olundu.

Əslində elə düşmənimiz erməni faşistlərinin də məqsədi bu deyilmi və daim buna çalışmırlarmı ki, xalqımız milli mənəvi dəyərlərindən uzaq düşsün, tarixini tamamilə unutsun.

Buna görə deyilmi ki, 30 il ərzində Qarabağda maddi-mədəni, dini abidələrimizi tamamilə məhv edib xalqımıza məxsus dəyərləri Yer üzündən silməyə çalışıblar?!.

Halbuki Qarabağ kimi böyük problemi olan, on minlərlə şəhid verən, yüz minlərlə vətəndaşı öz yurdunda məcburi köçkünə çevrilən ölkənin televiziya efirlərində bu cür mənzərələr görünməməli idi.

Televiziyalarımız da bu istiqamətdə dövlətin gördüyü işlərə, apardığı təbliğata dəstək verərək Azərbaycan həqiqətlərini, mədəniyyətini, milli-mənəvi dəyərlərini təbliğ etməli idi.

### Qarabağ mövzusundan yan gəzən telekanallar

Özəl televiziya kanallarının efirlərində yayımlanan bayağı ssenarilər əsasında çəkilmiş məişət xarakterli teleseriallar isə bir başqa dəhşətli mövzudur. Bu seriallarda məişət zorakılığı, yalan, xəyanət, vəfasızlıq, saxta sevgi hissləri at oynadır...

Və insanların mənəvi deqradasiyasına səbəb olan, uşaqların, yeniyetmələrin əxlaqına, psixologiyasına birbaşa təsir edən bu teleseriallar dövlət büdcəsindən ayrılan vəsait hesabına çəkilir...

Hansısa müəmmalı yanaşmaya əsasən indiyə qədər bu serialların birinin də ssenarisi Qarabağa həsr olunmayıb.

Həmin serialların birində də hansısa məcburi köçkün baş qəhrəman kimi canlandırılmayıb.

Hansısa alimimizin həyatı səhnələşdirilməyib, elm, təhsil, mədəniyyət təbliğ olunmayıb.

Erməni faşistlərinin xalqımıza qarşı törətdikləri Xocalı soyqırımının bənzəri dünya tarixində yaşanmayıb. Dövlətimiz bu cinayətin bütün dünyada öz hüquqi qiymətini alması üçün ciddi işlər həyata keçirir, təbliğat aparır. Amma nə yazıq ki, televiziyalarımızda Xocalı həqiqətlərindən bəhs edən, orada yaşanan vəhşət barədə bəşəriyyətə məlumat verməkdə əvəzsiz rol oynaya biləcək bir serial belə çəkilməyib...

Seriallar hazırkı zamanın tələbi olaraq bütün dünyada çəkilir. Elə biz də bu yeni yaradıcılıq formasına qarşı deyilik, əksinə, elə Türkiyədə çəkilən serialların təcrübəsindən bilirik ki, bu vasitə ilə dövləti, milləti, xalqı, onun keçmişini, milli-mənəvi dəyərlərini bütün dünyada necə möhtəşəm təbliğ etmək olar.

### Azərbaycanın tarixi həqiqətlərini bizim seriallar görməzdən gəlir, türk serialları isə təbliğ edir

Təkcə "Diriliş Ərtoğrul" serialını nümunə çəkək. Bu tarixi serial bitib, amma hələ də dünyanın dörd bir yanında, həm də müxtəlif xalqlar tərəfindən sevilərək izlənilir. Bu serial sayəsində uzaq-uzaq ölkələrin insanları Osmanlının yaradılış tarixinə heyran olur, türklərin igidliyinə, qəhrəmanlığına, vətən sevgisinə qibtə edirlər.

Bəs bizdə niyə müxtəlif şəxsiyyətlər, maraqlı tarixi hadisələr haqqında təbliğati seriallar çəkilmir? Düşünürsünüz ki, bu tamaşaçılarımız üçün maraqlı deyil və sizə pul qazandırmayacaq?

Axı Azərbaycan tamaşaçısı elə Türkiyədə çəkilən "Paytaxt Əbdülhəmid" serialında Hacı Zeynalabdin Tağıyevin obrazını böyük məmnunluq hissi və fərəhlə seyr etdi.

İndinin özündə "Quruluş Osman"dakı qarabağlı Gəncə bəy obrazına böyük qürurla tamaşa edir.

Bəs biz niyə tarixi həqiqətlərimizi teleseriallar vasitəsilə dünyaya çatdıra bilmirik?! Məgər tarixdə, xalqımızın həyatında müstəsna rol oynayan, həyatı, yaşamı ilə örnək olacaq şəxsiyyətlərimiz azdır?!

Qədim Atropatenadan başlayaraq cümhuriyyət quruculuğumuza, müstəqillik qazandığımız dövrlərə qədərki hər səhifəsi zəngin tariximiz maraqlı seriallar üçün mükəmməl ssenarilərdir.

Bütün bu dövrlərin, son 30 il yaşadıqlarımızın üzərindən heç yaşanmamış kimi, sükutla ötmüsünüz, səbəbi bir özünüzə bəllidir.

Bəs yeni, Azərbaycan tarixinin ən qürurverici və şanlı səhifələrini, 44 günlük Vətən müharibəsini, Qarabağın azadlığını niyə görməzdən gəlirsiniz?

Niyə dövlətimizin vəsaiti ilə çəkdiyiniz serialların biri də Zəfər tariximizə həsr olunmayıb?

Min metrlik sıldırımlara dırmaşaraq yalın əllə düşmənin təpədən-dırnağa silahlanmış əsgər və zabitlərini vəlvələyə salan, onları darmadağın edərək Şuşanı azadlığa qovuşduran azman oğullarımızın qəhrəman obrazları niyə mavi ekranlarda görünmür?

Ölkəmizin ərazi bütövlüyü uğrunda gözünü qırpmadan canından keçən hər şəhidimizin taleyi böyük bir qəhrəmanlıq dastanıdır. Amma teleserial ssenaristlərimiz kənar xalqlara aid motivləri xalqımıza dəyər kimi sırımağa çalışmaqla məşğuldurlar.

### Televiziyalarla bağlı səsləndirilən bütün iradlar həm də MTRŞ-yə ünvanlanır

Deməli, TV-lərimiz iddia etdikləri kimi, proqramlarını tamaşaçının zövqünə görə yox, öz ciblərinə görə qururlar. Elə bu üzdən də tamaşaçı kasadlığı yaşayırlar. Çağdaşlaşmağa, müasir dövrə ayaq uydurmağa çalışmırlar.

Televiziyalar cəmiyyətdəki dəyişikliklərə adekvat olaraq uyğunlaşmalı, ucuz şou proqramları çəkmək yarışına çıxmaq əvəzinə, istedadlarını ortaya qoyaraq sanballı verilişlər təqdim etməyə, teleseriallar çəkməyə başlamalıdırlar.

Necə ki, hazırda dünyanın aparıcı televiziya kanalları daim yenilənir, ictimai rəyə təsir imkanlarını genişləndirir, eynilə bizim telekanallar da fəaliyyətlərində müasir dövrün tələblərinə uyğun dəyişikliklər etməlidir.

Və tezliklə biz də Azərbaycan telekanallarının balanslaşdırılmış proqram siyasəti, yüksək efir mədəniyyəti, ictimai maraqlara xidmət, maarifləndirmə kimi peşəkarlıq meyarlarına uyğunlaşdığını görməliyik.

Azərbaycan tamaşaçısının da onlardan tələbi yalnız budur.

*Amma nə yazıq ki, kanallara nəzarət mexanizmini həyata keçirən Milli Televiziya və Radio Şurasının onlarla bağlı tələbinin bu olmadığı da gün kimi ortadadır. Deməli, televiziyalarla bağlı səsləndirilən bütün iradlar həm də məhz bu şuraya ünvanlanır...*

**Yasəmən MUSAYEVA,**
**"Azərbaycan"**